- Ümumi orta təhsil səviyyəsini bitirən və müvafiq təhsil sənədi (*ümumi orta təhsil haqqında attestat, ümumi orta təhsil səviyyəsini xarici ölkədə bitirmiş şagirdlər üçün ümumi orta təhsil haqqında attestatın ekvivalenti hesab edilən təhsil sənədi*) alan şagirdlər X sinfə qəbul edilə bilərlər;

- Övladının ümumi orta təhsil səviyyəsini bitirdiyi məktəbdə X sinfə qəbul olunmasını istəyən valideynlər **18 avqust 2021** -ci il tarixinədək ümumi orta təhsil haqqında attestat əlavə olunmaqla məktəbin direktoruna ərizə ilə müraciət etməlidirlər;

- Övladının ümumi orta təhsil səviyyəsini bitirdiyi məktəbdə deyil, digər məktəbdə X sinfə qəbul olunmasını istəyən valideynlər (qanuni nümayəndə) bu halda **25 avqust 2021-ci il tarixindən 10 sentyabr 2021-ci il tarixinədək** "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin "Şagird yerdəyişməsi" alt sistemi vasitəsilə (www.sy.edu.az) X sinfə qəbul üçün seçdikləri məktəblərə sorğu verməlidirlər. Digər məktəbdən gələn şagirdin X sinfə qəbulu zamanı onun əvvəl oxuduğu məktəbdə öyrəndiyi xarici dil mütləq nəzərə alınır. Övladının digər xarici dil tədris olunan məktəbin X sinfinə qəbulu ilə bağlı valideynin proqram təminatındakı sorğusuna yaşadığı (köçdüyü) ərazidə şagirdin əvvəl öyrəndiyi xarici dil tədris edilən başqa tam orta məktəb olmadığı halda razılıq verilir.

- Ümumi orta məktəbləri bitirən şagirdlərin valideynləri (qanuni nümayəndə) övladlarının tam orta təhsil səviyyəsi üzrə təhsilini davam etdirmək istədikləri halda **25 avqust 2021-ci il tarixindən 10 sentyabr 2021-ci il tarixinədək** "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin "Şagird yerdəyişməsi" alt sistemi vasitəsilə ( www.sy.edu.az ) X sinfə qəbul üçün seçdikləri tam orta məktəblərə sorğu verməlidirlər;

- Xarici ölkələrdə ümumi orta təhsil səviyyəsini bitirib müvafiq təhsil sənədi almış şagirdlərin valideynləri övladlarının X sinfə qəbulu üçün **25 avqust 2021-ci il tarixindən etibarən 10 sentyabr 2021-ci il tarixinədək** "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin "Şagird yerdəyişməsi" alt sistemi

vasitəsilə (sy.edu.az) seçdikləri məktəbə sorğu verə bilərlər.